# Ürəyi rəngkarlıqla döyünən rəssam

Mən Elşən Hacızadə ilə 2006 -cı ildə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində tanış olmuşam-.O, rəssamlıq fakültəsində rəngkarlıqdan dərs deyirdi. Mən isə həmin fakültədə tədris ustası işləyirdim. Bu sadə güləruz insanla ünsiyyətdə olmaq mənim üçün çox xoş idi. Bizim tanışlığımız artıq dostluğa çevrilmişdi. Onunla bir yerdə olanda, sənət haqqında çox söhbətlərimiz olurdu. Sonradan öyrəndim ki, O, 31 oktyabr 1947-ci ildə anadan olub. 1970-1974-cü illərdə Əzim Əzimzadə adına rəssamlıq məktəbinin " Rəngkarlıq" şöbəsini, 1975-1981-ci illərdə isə Tbilisi Dövlət Rəssamlıq Akademiyasının " Rəngkarlıq" şöbəsini müvəffəqiyyətlə bitirib.

Elşən Hacızadə hələ oxuduğu illərdə, gözəl rəngkarlıq əsərləri yaratmağa başlayır.Ona görə də onu, 1983-cü ildən artıq SSRİ rəssamlar ittifaqına üzv qəbul etmişdilər.Gözəl rəng duyumuna malik olan Elşən müəllim, oxuduğu müddət ərzində rəngkarlıq sənətinin sirlərinə dərindən yiyələnmişdi. Bu ona sonrakı yaradıcılıq illərində öz təsirini göstərdi. Belə ki, O, bir-birindən gözəl rəngkarlıq əsərləri yaratmağa başladı.Məsələn, 2008-2010-cu illərdə "Azərbaycan Sərhəd Qoşunlarına" həsr olunmuş müsabiqədə O, I-ci yerə layiq görüldü.1990-cı ildən 1914-cü ilədək "20 yanvar" və " Xocalı soyqırımı" adlı sərgilərin mütəmadi olaraq iştirakçısı olmuşdur.1991-ci ildən 1999-cu ilədək müxtəlif auksionlarda əsərləri nümayiş olunmuşdur.

Vətənə məhəbbət, sevgi və ona bağlılıq Elşən müəllimin amalı olmuşdur. Belə ki, O, 2008 -ci ildə Qarabağın incisi sayılan "Şuşa" əsərinə görəI-ci yerəlayiq görülmüşdü. Hətta, bir dost kimi mənim portretimi də, yüksək səviyyədə işləmişdi. Mənim 2008-ci ildə Yasamal rayon Mədəniyyət mərkəzində keçirilən yaradıcılıq gecəsində, həminportreti mənə təqdim etmişdi.



Portretə baxan tamaşaçılar təəccüb içində olub deyirdilər: -İlahi görəsən bunu insan yaradıb?-Elə bil ki, canlıdır.Əhsən, bunu yaradan rəssama!

Evdə bizəgələn qohumlar, qonşularbu portreti göröndə deyirdilər: -Halalolsun bunu çəkənə,əllərinə sağlıq, elə bil ki, canlıdır.Allah onu bədnəzərdən qorusun...və s.Elşən geniş diopozona malik bir rəssamdır.O, 1915-ci ildə"Yaranış fərziyyəsi","Səadət", 2016-cı ildə "Çılpaq xəyallar" və s.Sayı -hesabı olmayan rəngkarlıq əsərləri yaratmışdır.

Bütün bu məhsuldar fəailiyyətinə görə, incəsənət Universitetinin rəhbərliyi onun səmərəli fəailiyyətini nəzərə alaraq 2010-cu ildə ona başmüəllim vəzifəsini, 2013-cü ildə isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan Təsviri incəsənətin inkişafındakı xidmətlərinə görə, onu "Əməkdar rəssam" fəxri adına layiq görmüşdü.

Biz, Elşən müəllimə birinci növbədə cansağlığı arzulayırıq."Sağlam canda, sağlam ruh olar"- deyirlər.Ona görə, bundan sonra da, biz ona sağlam ruhda əsərlər yaratmağı arzulayırıq və insanlar da bu gözəl əsərlərə baxıb feyziyab olsunlar.

*Şahvələd Əliyev*
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi*